# ALI TƏHSILDƏ GENDER MEYNSTRIMINQI: HÜQUQ MƏKTƏBLƏRI ÜÇÜN YOXLAMA SIYAHISI



Funded
by the European Union
and the Council of Europe

EUROPEAN UNION

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Implemented
by the Council of Europe

This document has been produced as part of a project co-funded by the European Union and the Council of Europe. The views expressed herein can in no way be taken to reflect the official opinion of either party.

*Th opinions expressed in this work are the responsibility of the author and do not necessary reflect the official policy of the Council of Europe*

All requestes concerning the reproduction of translation of all or part of this document should be adressed to the Directorate of Communication (F-67075 Strasbourg Cedax or publishing@coe.int

All other correspondence concerning this document should be addressed to the Equality Division of the Directorate General of Democracy.

Cover and layout: Friends of Brands, Kyiv, Ukraine

Photos: Shutterstock

© Council of Europe, November 2020

# ALI TƏHSILDƏ GENDER MEYN-STRIMINQI: HÜQUQ MƏKTƏBLƏRI ÜÇÜN YOXLAMA SIYAHISI

**Doktor Anna Laure Humbert** [1 2]

## Bu yoxlama siyahısının məzmunu nədən ibarətdir?

Bu yoxlama siyahısında ali təhsil müəssisələri, xüsusən də hüquq məktəbləri tədris proqramında gender meynstriminqini planlaşdırdığı zaman diqqətə alınacaq vacib məqamlar öz əksini tapmışdır. Avropa Şurasına3 əsasən gender meynstriminqi siyasətlərin, proqramların və ya layihələrin hazırlanmasında həm qadınların, həm də kişilərin qayğılarının, ehtiyaclarının, yaşayış şəraitinin və şərtlərinin nəzərə alınması deməkdir. Hüquq məktəbləri kontekstində bu, tədris proqramının tərtib olunması prosesinin bütün aspektlərində gender bərabərliyi perspektivinin daxil edilməsini təmin etmək deməkdir.

## Yoxlama siyahısının məqsədi nədir?

Bu yoxlama siyahısının məqsədi hüquq məktəblərinin şəxsi heyətlərinə (məsələn, universitet rəhbərliyi, dekanlar, professorlar və s.) hüquq fənni üzrə tədris proqramında gender meynstriminqi barədə fikir bildirməyə, qiymətləndirməyə imkan yaratmaqdan və əlavə tədbirlərə ehtiyac olduqda onları istiqamətləndirməkdən ibarətdir.

## Yoxlama siyahısından necə istifadə etmək olar?

Bu yoxlama siyahısı direktiv aləti olmaqdan daha çox rəy bildirmək və fəaliyyətə başlamaq üçün başlanğıc nöqtədir. O, həmçinin kontekstə, xüsusilə ali təhsil müəssisələri üçün milli kontekstin xüsusiyyətlərinə və fənn kimi hüquq sahəsinə uyğunlaşdırılmalıdır.

1 Humbert, Klayton-Hatvey və Tzanakouya əsaslanıb (2020), https://gearingroles.eu/wp-content/uploads/2020/05/2002-Gender-mainstreaming-in-education.pdf

2 Doktor Maria Lopez Bellosoya (Deusto Universiteti, İspaniya) və Doktor Çara Bakalisə ("Oxford Brookes" Universiteti, Böyük Britaniya) bu yoxlama siyahısına verdiyi dəyərli şərhləri və töhfələri üçün təşəkkür edirik

3 https://www.coe.int/en/web/genderequality/what-is-gender-mainstreaming

## Müdaxilələr hansı müxtəlif sahələri əhatə edir?

Ali təhsil sahəsində gender meynstriminqi dörd əsas sualın həllinə yönəlib:

**1. Nə?** Genderə həssas **məzmun** dedikdə, mövzu ilə bağlı konkret məzmunda gender bərabərliyi perspektivinin təmin edilməsi nəzərdə tutulur. Bu, qadınlar və kişilər arasındakı qeyri-bərabər güc münasibətlərinə aşkar şəkildə toxunmaqla, eyni zamanda cinsi mənsubiyyət və genderlə kəsişən digər müxtəliflik əsaslarını (məsələn, yaş, əlillik, etnik mənsubiyyət və s.) ehtiva edən çoxşaxəli perspektivin nəzərə alınması deməkdir.

**2. Necə?** Genderə həssas **pedaqogika** müxtəlif tədris və təlim üsullarında gender amilinin tətbiqi yolları barədə düşünməyə vadar edir. Ferquson[4] genderə həssas pedaqogikanı iştirak əsaslı təhsilin ehtiva edilməsi, şəxsi təcrübənin doğruluğunun təsdiqlənməsi, sosial fəaliyyətin və hesabatlılığın təşviq edilməsi, tənqidi düşüncənin və qavrayışın təkmilləşdirilməsi, sosial təsisatların rolunun başa düşülməsi və nəzərə alınması kimi müəyyənləşdirir. Gender bərabərliyi ilə bağlı pedaqoji yanaşmalar həm müəllimlərin bilik və münasibətlərində, həm də onların tədris təcrübəsində gender əsaslı ayrı-seçkiliyi aradan qaldırmalıdır.

**3. Kim?** Genderə həssas **strukturlar** hazırlanmalı və tətbiq edilməlidir. Burada proqramlar və ya modullar çərçivəsində müəllim heyətləri də daxil olmaqla şəxsi heyətin gender tərkibinə diqqət yetirilməsi nəzərdə tutulur. Habelə müəllim heyətinin üzvləri keçdiyi fənlə əlaqədar cins və gender perspektivinin uyğunluğu üzrə müvafiq qaydada hazırlıqlı olmalı və bu sahədə fasiləsiz peşəkar inkişafa cəlb edilməlidir.

**4. Hansı kontekstdə?** Ali təhsil müəssisələrində tədris proqramı və elmi-tədqiqatların gender meynstriminqi üçün yuxarı rəhbərlik daxil olmaqla bütün səviyyələrdə institusional hazırlıqlı genderə həssas **ekosistemlər** tətbiq edilməlidir. Sözügedən sistemlər müntəzəm qiymətləndirmə, monitorinq və yekun qiymətləndirmə ilə yanaşı müvafiq resurslar vasitəsilə dəstəklənməli, həmçinin genderin əhəmiyyətinin görünümlüyünü və legitimliyini təmin etməlidir. İnstitutlar şəxsi heyət və tələbə qrupları daxilində/arasında seksizmin, cinsi qısnamanın və gender əsaslı zorakılığın qarşısının alınmasını təmin etməlidir.

4 https://trainingcentre.unwomen.org/RESOURCES_LIBRARY/Resources_Centre/00%20Introduction%20Working%20Papers.pdf

# NƏ

## 1. Hüquq fənni üzrə tədris proqramında cins və genderlə əlaqəli əsas anlayışlar mövcuddurmu?

| QƏTIYYƏN | 1 | 2 | 3 | 4 | 5 | BƏLI |
|---|---|---|---|---|---|---|

Tədris proqramında gender amilinin nəzərə alınmasını təmin etmək üçün ilk növbədə cins və genderlə əlaqəli əsas anlayışlar daxil edilməlidir. Cins dedikdə bioloji göstərici başa düşülə bilər, belə ki, İstanbul Konvensiyasına[5] müvafiq olaraq gender dedikdə "hər hansı bir cəmiyyətin cinsiyyətinə müvafiq olaraq kişi və qadına verdiyi rollar, eləcə də qadın və kişilər üçün münasib olduğu düşünülən davranışlar, fəaliyyətlər və xüsusiyyətlər" başa düşülür. Ümumilikdə gender cins anlayışına bağlıdır (lakin mütləq deyil). Gender cəmiyyətin təməl təşkilati prinsipi olaraq başa düşülməli, habelə təhsil sistemlərinin yaradılmasının, o cümlədən ölkə qanunvericiliyi və beynəlxalq qanunvericilik çərçivələrinin, onların izahı və tətbiqinin əsasını təşkil edən qadınlar və kişilər arasında tarixən bərabər olmayan güc münasibətləri ilə yüklənmişdir. Bu, o deməkdir ki, hüquq fənni üzrə tədris proqramı mövcud qanunvericilik bazasında yer almış bərabərsizlikləri əks etdirməyə meyllidir və gender perspektivini özündə ehtiva edə bilmədikdə gender normaları, gender rolları, gender əsaslı ayrı-seçkilik və/yaxud gender stereotiplərini gücləndirə bilər. Hüquq fənni üzrə tədris proqramında cins və gender ilə əlaqədar əsas anlayışları təhlil edərkən qanunun predmeti (məsələn, ailə qanunvericiliyi, ticarət qanunvericiliyi və ya konstitusiya qanunu) və qanunda cinsi və gender əsaslı müxtəlif hüquqların müdafiə üsulları da nəzərə alınmalıdır (məsələn, ailə qanunvericiliyində nikah hüququ, yaxud əmək qanunvericiliyində hamiləlik/valideynlik məzuniyyəti hüquqları). Məsələn, maraq doğuran sualların istər cinsi mənsubiyyət, istərsə də gender ilə əlaqəli olmasına baxmayaraq gender stereotiplərinin dağıdılması daxil olmaqla bütün anlayışlar tədris proqramına daxil edilməlidir. Burada həmçinin qadınlara qarşı zorakılıq hallarının baş verdiyi təqdirdə qəyyumluq hüququ məsələsində olduğu kimi fərqli qanun növlərinin gender bərabərliyinə uyğunlaşdırılması yollarının araşdırılması da nəzərdə tutula bilər.

## 2. Hüquq fənni üzrə tədris proqramında cins və genderlə əlaqədar təkmilləşdirilmiş əsas anlayışlar mövcuddurmu?

| QƏTIYYƏN | 1 | 2 | 3 | 4 | 5 | BƏLI |
|---|---|---|---|---|---|---|

5 https://www.coe.int/fr/web/conventions/full-list/-/conventions/rms/090000168008482e

Hüquq fənni üzrə tədris proqramına cins və genderdən əlavə daha da təkmilləşdirilmiş anlayışlar daxil edilməli və nəzərə alınmalıdır. Bura cinsi mənsubiyyətin, seksual orientasiyanın və heteronormativliyin daxil edilmə dərəcəsi və ayrı-seçkiliyin tətbiq edilməsi hallarının qanunda mövcud olub-olmaması daxildir. Hüquq məktəbinin tədris proqramında mənsubiyyətin və cinsi orientasiyanın fərqli hüquq sistemlərində necə həllini tapması, eynicinsli nikahın qanuni olub-olmaması və bu hal baş verərsə, bərabər valideynlik hüquqlarının verilib-verilmədiyi kimi sualların qaldırılması nəzərdə tutulmalıdır. Buraya cinsi mənsubiyyət haqqında debatların aktuallığı, dünyanın bir çox ölkəsində eynicinsli nikahın tətbiq edilməsinin nəticələri və ya günbəgün yaranan və müşahidə edilən fərqli ailə modellərinin meydana gəlməsi üçün heteronormativliyin təsirləri ilə bağlı kazuslar da daxil edilə bilər. Qanunvericilik çərçivələrində artan şəkildə alternativ ailə modelləri ilə əlaqəli məsələlər, məsələn, uşaqların eynicinsli partnyorluq mühitində doğulması və/yaxud övladlığa götürülməsi halları nəzərdə tutulmalıdır. Burada qanuna dair sosial-hüquqi perspektivlər genderin cəmiyyətdə formalaşmasının qanunvericilik ilə qarşılıqlı əlaqəsini müəyyən etmək üçün xüsusilə dəyərli ola bilər (məsələn, hüquq elminə daha inklüziv yanaşmanı təmin etmək məqsədilə ailə qanunvericiliyi və boşanma ilə əlaqədar qanunvericiliyin təşkili və formalaşması yolları ilə əlaqədar hallarda).

## 3. Hüquq fənni üzrə tədris proqramında interseksonallıq və çoxtərkibli ayrı-seçkilik anlayışı mövcuddurmu?

| QƏTIYYƏN | 1 | 2 | 3 | 4 | 5 | BƏLI |
|---|---|---|---|---|---|---|

Tədris proqramında qruplar daxilində özünəməxsus müxtəlifliyi və fərqli qrupların üzləşdiyi gücün qeyri-sabitliyini müəyyən edən interseksonal yanaşma təqdim edilməlidir. İnterseksonallıq qadın və kişilərdən ibarət ayrı-ayrı qrupların, məsələn, fərqli yaşlarda həyat tərzi ilə əlaqədar və ya əlil olduqları üçün rastlaşdıqları üstünlükləri və çatışmazlıqları əks etdirir. Qanunvericilikdə interseksonallıq anlayışı ayrı-seçkiliklə mübarizə haqqında qanunla əlaqəli olsa da vahid koordinat üzərində cəmləşmənin məhdudluğuna dəlalət edir. Həm qadın, həm də etnik azlığın nümayəndəsi olmaq kimi müxtəlif mənsubiyyətlərin birləşməsindən yarana biləcək ayrı-seçkilik vacib xarakter daşıya bilər. İnterseksonallıq güc strukturlarının yalnız majoritar qruplar üçün deyil, istisnasız bütün qruplar üçün müəyyənləşdirilməsini, təhlilini və ləğv edilməsini təmin etməkdən bəhs edir. Nəticədə müxtəlif nöqteyi-nəzərdən qanunun quruluşu və təfsirinin təhlil edilə biləcəyi fərqli bilik üsullarını qəbul edərək interseksonallıq epistemoloji çərçivə qismində daxil edilə bilər. Fərqli qrupların hüquqlarının müdafiəsini təmin etmək tələbini nəzərə almaqla insan hüquqları məsələsində interseksonal yanaşmanın tətbiqi zərurəti xüsusilə nəzərə çarpır. Ailə qanunvericiliyi kontekstində bu, fərqli dini və ya etnik qruplar daxilində fərqli məna və təcrübələri anlamaq mənasını da ifadə edə bilər.

## 4. Hüquq fənni üzrə tədris proqramındakı cins və gender anlayışları yalnız fərdi səviyyədə bərabərsizlikləri təqdim etməklə kifayətlənməyib, həm də ətraf mühitdəki struktur amillərinin təsiri altında formalaşırmı?

| QƏTIYYƏN | 1 | 2 | 3 | 4 | 5 | BƏLI |
|---|---|---|---|---|---|---|

Gender bərabərsizlikləri müxtəlif səviyyələrdə özlərini büruzə verir: fərdi (mikro), təşkilati (mezo) və cəmiyyət (makro). Hüquq fənni üzrə tədris proqramında gender meynstriminqi bərabərsizliklərin fərdi səviyyədə necə təzahür etdiyini deyil, həm də onların formalaşdığını və ətrafdakı struktur amillərə qarşı necə reaksiya verdiyini başa düşmək deməkdir. Məsələn, cinsi qısnama ayrı-ayrı şəxslər səviyyəsində qanuniləşdirilir, lakin o, iş yerində gender əsaslı zorakılıq haqqında siyasətlər və ölkə/beynəlxalq səviyyədə daha geniş bir qanunvericiliklə müəyyən edilə bilər. Ailə qanunvericiliyi kimi sənədlərdə qadınların qeyri-mütənasib təsirə məruz qaldığını əsas gətirərək bu cür qanunların quruluşunun seksist mahiyyət daşıdığını iddia etmək mümkündür. Beləliklə, hüquq fənni üzrə tədris proqramında faktiki şəkildə bitərəfliyin mövcud olub-olmaması və fərqlərin müəyyən edilməsi ilə ayrı-seçkiliyə qarşı mübarizə haqqında qanunvericilik arasındakı kompromis həll yollarına dair təhlillər öz əksini tapmalıdır. Bura, bərabər nəticələrə gətirib çıxarmasa belə qanunvericilikdə bərabər imkanların və nəticələrin (məsələn Əmək Məcəlləsində qadın və kişilərlə bərabər rəftarın nümayiş etdirilməsi ehtimalı) nəzərdə tutulub-tutulmadığı, bəzi hallarda müəyyən qruplara fərqli rəftarın nümayiş etdirilməsinin lazım olub-olmaması (məsələn, qadınlar və kişilər arasında mövcud tarixi bərabərsizlikləri balanslaşdırmaq üçün analığın mühafizəsi və ya kvota haqqında qanunvericilik kimi nəzərə alınması zəruri olan özünəməxsus məqamlara dair ehtimallar), yaxud da əlavə olaraq təhlil edilməsinə ehtiyac duyulan strukturlara (mövcud strukturların genderə qarşı qərəzli münasibətlərə malik olmasının, qanunvericiliyin normaların və mövcud güc nisbətlərinin tənqidi təhlilinə töhfə verməsinə dair fərziyyələr) dair mühakimələr daxildir. Burada həmçinin kriminologiya və cinayət hüququnda kişilərin zorakılığa daha çox meyl göstərməsinin maskulinliyə (kişiyə xas xüsusiyyətlərə) dair gözləntilər və ifadələrlə (toksik maskulinlik formaları da daxil olmaqla) nə dərəcədə əlaqəli olduğuna baxılması da nəzərdə tutula bilər.

## 5. Hüquq fənni üzrə tədris proqramında insan hüquqları, təməl hüquqlar, (gender) bərabərlik və qadınlara qarşı zorakılıqla əlaqədar əsas anlayışlar mövcuddurmu?

| QƏTIYYƏN | 1 | 2 | 3 | 4 | 5 | BƏLI |
|---|---|---|---|---|---|---|

İnsan hüquqları istənilən tədris proqramında gender meynstriminqinin əsasını təşkil etməli və bu məsələ hüquq məktəbləri üçün daha aktualdır. Bundan əlavə, qadın hüquqları insan hüquqlarının ayrılmaz tərkib hissəsi olduğu üçün insan hüquqlarına gender bərabərliyi perspektivindən də yanaşmaq lazımdır. Tələbələr cinsi və gender bərabərliyi haqqında məlumat verən qanunvericilik, siyasət və normativ bazalarını nəzərdə tutan tədris materialı ilə təmin edilməlidir. Bu materiallar insan hüquqları, təməl hüquqlar və bərabərlik haqqında qanunvericiliklə əlaqədar cins və gender ilə bağlı əsas anlayışları özündə əks etdirməlidir. Habelə təşkilati, ölkə, Aİ və ya beynəlxalq səviyyədə necə fəaliyyət göstərdiklərini nəzərə alaraq müxtəlif səviyyələrdə araşdırılmalıdır. Məsələn, tələbələrin Olimpe de Qoucun irsi ilə tanış edilməsi vasitəsilə qadın hüquqlarını insan hüquqları kimi müzakirə etməyə başlamaq olar. Bundan əlavə, AİHM (Avropa İnsan Hüquqları Məhkəməsi), İCCPR (Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt) kimi daha ümumi konvensiyalarda və ya alternativ olaraq İstanbul Konvensiyası və CEDAW (Qadınlara qarşı ayrı - seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında Konvensiya) kimi konkret mətnlərdə gender meystriminqi ilə əlaqədar üstünlüklər və çatışmazlıqlar haqqında mülahizələri tədris proqramına daxil etmək olar. Nəhayət, tələbələrə aşağıdakı kimi böyük konvensiyalar çərçivəsində genderlə əlaqəli müxtəlif mövzular təqdim edilə bilər: (1) Yaşamaq hüququ və ya qadınlara qarşı zorakılıqla əlaqədar AİHM-in 2-ci mad-

dəsi və İCCPR-in 6-cı maddəsi; (2) Şəxsi və ailə həyatına hörmət hüququ haqqında AİHM-in 8-ci maddəsi, AİHM-in 9-cu maddəsi və dini etiqad azadlığı haqqında İCCPR-in 18-ci maddəsi; və ya (3) Toplaşma və birləşmə hüququ və siyasi iştirak haqqında AİHM-in 11-ci maddəsi və İCCPR-in 25-ci maddəsi. Bura nifrət cinayətini və nifrət nitqini qadağan edən qanunlara əsasən cins və genderin qorunan bir xüsusiyyət kimi qəbul edilməsinə və ya qəbul edilməsinin tələb olunmasına dair müzakirələr də daxil edilə bilər. Buna Nazirlər Komitəsinin CM/Rec(2019) tarixli Tövsiyəsi kimi qadınların təhsilinə və iqtisadi və ictimai həyatda iştirakına mənfi təsir edən seksizm və ayrı-seçkilik stereotipləri ilə mübarizə və onların qarşısının alınması üçün tədbirlərin daxil edilməsi də nəzərdə tutula bilər.

## 6. Gender stereotiplərinin olmamasını təmin etmək üçün tədris materiallarına müntəzəm baxış keçirilirmi?

| QƏTIYYƏN | 1 | 2 | 3 | 4 | 5 | BƏLI |
|---|---|---|---|---|---|---|

Tədris materiallarına müntəzəm baxış keçirilməlidir ki, tədrisin məzmunu həm qadınların, həm də kişilərin həyatlarını bütün müxtəlifliyi ilə təmsil etməklə yanaşı qadınlar və kişilərdə həm kəmiyyətcə, həm də keyfiyyətcə ayrı-seçkilik etmədən və gender bərabərliyini təbliğ edən yanaşmanın təşviqi mümkün olsun. Bu, oxu siyahılarının məzmununu və hüquq təhsili sahələrində kursun bir hissəsi olaraq təhlil olunan mövzuları və hadisələri müntəzəm olaraq nəzərdən keçirmək deməkdir. Bura hakimlərə gender əsaslı zorakılıq və daha konkret desək, cinsi zorakılıq və təcavüz mövzusunda təlim keçmək yolu ilə nəinki milli kontekstdə gender bərabərliyi üçün məhkəmə presedentlərinin müzakirəsi, həm də verilən hökmdə mümkün qərəzli yanaşmaların və ya bu cür yanaşmaların sayının azaldılması üsullarının müzakirəsi daxil edilə bilər. Valideynlik öhdəliyi ilə bağlı işlərə baxıldığı zaman himayədə olan uşaqların qəyyumluğuna dair məhkəmə qərarlarına potensial təsirlər üçün gender stereotiplərinin təsirləri nəzərə alınmalıdır və bu kimi hadisələrə sadəcə intim partnyor tərəfindən törədilən zorakılıq hadisəsi kimi yanaşılmamalıdır. Mövcud tədris materiallarında mümkün gender stereotiplərini və stereotipik cəmiyyətdə gender rollarına əsaslanaraq ailənin patriarxal baxışlarının dəstəklənməsi ehtimallarını nəzərə alaraq onların qiymətləndirilməsi aparılmalıdır. Onların bu materialları təcavüz, seks ticarəti və fahişəlik kimi genderlə əlaqəli mövzuların tənqidi feminist təhlilini necə təmin etdiyi qiymətləndirilməlidir. Bəzi ölkələrdə məhkəmə heyətləri tərəfindən tarixən istifadə olunan ağıllılıq prezumpsiyası məsələsində olduğu kimi qərəzli fikirlərin və gözləntilərin hökm sürməsinə səbəb ola biləcək istifadə edilən dil də tənqidi nöqteyi nəzərdən təhlil edilməlidir. Digər bir nümunə isə stereotiplərə və sosial normalara əsaslanan hüquqi müdafiə strategiyalarının tarixi inkişafını araşdırılmasıdır. Cinsi zorakılıqla bağlı işlərdə cinsi zorakılığın baş vermə səbəbinin cinayətkarın özünü idarəetmə qabiliyyətini itirməsi və/yaxud qurbanın təxribatının səbəb gətirilməsi kimi mülahizələrə əsaslanan bəzi strategiyalar tənqid edilmişdir. Nəhayət, şərəf və ləyaqətin alçaldılması və ya iqtisadi ziyanın vurulması ilə bağlı işlərlə müqayisədə məişət zorakılığı zəminində vurulmuş psixoloji zərərə daha az diqqət yetirildiyi hallarda mülki hüquq pozuntusu çərçivəsində dəymiş zərərin əvəzinin ödənilməsi genderləşdirilməlidir.

## 7. Tədris proqramında ənənəvi yanaşmalardan başqa alternativ baxışlar və yanaşmalar təmin edilirmi?

| QƏTIYYƏN | 1 | 2 | 3 | 4 | 5 | BƏLI |
|---|---|---|---|---|---|---|

Fənn mövzuları, adətən fənnin tarixi inkişafının mərkəzi hesab olunan əsas müəlliflərin təqdim etdiyi mətnlərə, yəni qəti olaraq müəyyən edilmiş oxu materiallarına əsaslanır. Tədris proqramının gender meynstriminqi üçün tələbələrə alternativ perspektivlərin təqdim edilməsi və çoxsaylı yanaşmalar sayəsində bilik və anlayışların dərinləşdirilməsi üsullarının müzakirə edilməsi vacibdir. İnsan hüquqları ilə bağlı genderə həssas və/yaxud feminist nöqteyi nəzərindən qiymətləndirmə tədris proqramına daxil edilə bilər. Ənənəvi olaraq hüquq məktəblərində əsas diqqət tələbələrdə vəkil düşüncəsinin formalaşdırılmasına və hüquqi əsaslandırmanın (düşüncənin) tədrisinə yönəldilmişdir. Halbuki, düzgün olmayan hüquqi əsaslandırma öz-özlüyündə genderləşdirilir və hüquq fənni üzrə tədris proqramı gender bitərəfliyinə malik olmayan prinsip və dəyərlərin əmələ gəlmə yollarını araşdırmalıdır. Məsələn, qərara feminizm perspektivindən yenidən baxılması çox fərqli nəticələrə gətirə biləcəyini nümayiş etdirmişdi.

# NECƏ

## 8. Gender bərabərliyi tədris proqramının müstəqil elementidir?

| QƏTIYYƏN | 1 | 2 | 3 | 4 | 5 | BƏLI |
| --- | --- | --- | --- | --- | --- | --- |

Görünümlük, legitimlik və çəki yaratmaq üçün gender bərabərliyi məsələləri tədris proqramına müstəqil element kimi daxil edilməlidir. İdeal olaraq, bu, daha böyük bir tədris proqramı çərçivəsində bütöv bir modul formasında təşkil edilə bilər. Məsələn, bakalavr səviyyəsində hüquq üzrə kurs proqramına “Gender və Qanun” və ya “Gender və Aİ Qanunvericiliyi” kimi insan hüquqlarının daha geniş səlahiyyətləri çərçivəsində gender məsələlərinə dair bir modul daxil edilə bilər. Bu, qanunun qəbulu və tətbiqi sahəsində dil, məzmun və ya təsir baxımından genderə həssaslıq səviyyəsinin təhlil edilməsini təmin edə bilər.

## 9. Gender bərabərliyi hüquq fənni üzrə tədris proqramının məcburi elementidir?

| QƏTIYYƏN | 1 | 2 | 3 | 4 | 5 | BƏLI |
| --- | --- | --- | --- | --- | --- | --- |

Gender bərabərliyi perspektivini hüquq fənni üzrə tədris proqramının məcburi hissəsi kimi bütün modullara (məsələn, ailə qanunvericiliyi, ticarət qanunvericiliyi və ya konstitusiya qanunu) daxil etmək lazımdır. Bu mövzunun hüquq fənni üzrə tədris proqramı çərçivəsində konkret maraq mövzusunun əlavə elementinə çevrilməsinin qarşısının alınmasını təmin etmək çox vacibdir. Genderin məcburiləşdirilməsi qadın problemlərinə yalnız azlıq məsələsi kimi baxmaq əvəzinə genderin cəmiyyətdəki güc münasibətlərini hamının (qadın və kişinin) xeyrinə düşünmək və tənqidi təhlil etməyin zəruriliyini üzə çıxarır. Məsələn, gender bərabərliyi perspektivinin inteqrasiyası məcburi edildiyi zaman qanunun genderləşmiş mahiyyətini və onun formalaşma yollarını başa düşməyə imkan verir. Bu, istifadə edilən dildə də özünü büruzə verir, məsələn, indi ‘birgə yaşayan cütlük’ kimi xarakterizə edilən vətəndaş nikahı əvvəlki məhkəmə qərarlarında problemli şəkildə - ‘kişi və onun məşuqəsi’ kimi təsvir edilmişdir. Hüquq fənni üzrə tədris proqramı çərçivəsində gender məsələləri ilə əlaqədar işlərin aparılmaması bu kimi hadisələrin israrla davam etməsinə və onlara qarşı cavab tədbirlərinin görülməməsinə yol açır.

## 10. Hüquq fənni üzrə tədris proqramında gender amilini nəzərə alan yanaşma və metodologiyalar nəzərdə tutulurmu?

| QƏTIYYƏN | 1 | 2 | 3 | 4 | 5 | BƏLI |
|---|---|---|---|---|---|---|

Öyrənmə yollarına (epistemologiyalar) müxtəlif perspektivdən yanaşıla bilər. Hadisələrə gender prizmasından baxmaqla genderə həssas və feminist yönümlü epistemologiya əsası qoyulmuş və öyrədilmiş biliklərin əksəriyyətinin kişilərin təcrübələrinə söykəndiyi iddiasını irəli sürmüşdür. Fərqli prizmalardan istifadə tələbələr üçün daha zəngin bir perspektivi təmin edə və dünya haqqında daha geniş bir perspektivlə tanış olmağa imkan verə bilər. Hüquq fənni üzrə tədris proqramında bu, təcavüz ilə bağlı verilmiş hökmlər zamanı istifadə edilən (və ya istifadə edilməyən) 'razılıq' kimi təməl prinsiplərin müzakirə obyektinə çevrilməsi deməkdir. Bu həm də tibbi qanunvericilikdə muxtariyyət anlayışına, məsələn, analıq dövründə qadınlara xəstə kimi necə rəftar edildiyini müşahidə etmək mənasını da verə bilər. Bu, həmçinin nisbi muxtariyyət ideyasını əhatə edir ki, burada ayrı-ayrı şəxslər boş-boşuna qərarlar vermir, əksinə, həmin qərarların digər şəxslər üçün mənfi təsirlərini də nəzərə alır və bu da ictimai normalara uyğun olaraq qadınlar və kişilər üçün mümkün fərqli yanaşmanı təmin edir. Ümumiyyətlə, tədris proqramı qanunvericiliyin mübahisəli mahiyyətini və onun (stereotipik şəkildə) daha müştərək və qayğıkeş yanaşmalarla münasibətdə təzad yaratdığı maskulin quruluş kimi başa düşülmə ehtimalını nəzərə almalıdır.

## 11. Tədris zamanı tələbələrin fərqli qruplar çərçivəsində birlikdə çalışması üçün imkanlar yaradılırmı?

| QƏTIYYƏN | 1 | 2 | 3 | 4 | 5 | BƏLI |
|---|---|---|---|---|---|---|

Tələbələrin tədris aldıqları müddətdə birlikdə çalışması və bunun gender münasibətlərinin hansı təsirlərinə məruz qaldığı araşdırılmalıdır. Bu, tələbələrin fərqli təcrübələrindən hamı üçün tədris təcrübəsinə dəyər əlavə etmək üçün istifadə olunmasını təmin etmək məqsədi daşıyır. Həmçinin hər kəsin bərabər töhfə vermək fürsəti, tələbə qruplarında/heyətlərində gender müxtəlifliyinin mövcud olması və təcrid olunmanın qarşısının alınması təmin edilməlidir. Məsələn, müəllim heyəti tələbə qruplarının təkcə bir qadından, qalanlarınının isə kişilərdən (və əksinə) ibarət olmamasını təmin etməlidir. Gender bərabərliyinin təmin edilməsi və ayrıseçkiliyə qarşı mübarizə aparılması məqsədilə tələbələrə genderlə əlaqədar işlərin şahidi olmaq, eləcə də nəzəri bilikləri ilə fərdi anlayışlar və praktik hüquqi təcrübə arasında körpü yaratmaq imkanı verən hüquqi klinikalar təsis etməklə hüquq sahəsində müştərək fəaliyyətə nail olmaq olar.

# KIM

## 12. Proqramı tədris edən heyətdə gender balansı varmı?

| QƏTIYYƏN | 1 | 2 | 3 | 4 | 5 | BƏLI |
|---|---|---|---|---|---|---|

Proqramlar çərçivəsində və mümkün olduğu təqdirdə modullar daxilində gender müxtəlifliyinə malik müəllim heyətinin olmasını təşviq etmək vacibdir. Bu həm də proqramın tədrisi müddətində gender balansının təmin edilməsi və tələbələrə proqramının birinci yarısında yalnız qadınlar (və ya kişilər) tərəfindən tədris edilmə hallarının qarşısının alınması deməkdir. Proqramı tədris edən heyətdə gender balansının bərabər şəkildə təmsil olunması mühüm simvolik rol oynayır və hüquq fakültəsinin tələbələrinin bu təcrübəni yalnız cəlb edilmiş insanlara münasibətdə deyil, həm də qanunun məzmunun gender baxımından inklüziv olmasına istiqamətləndirməsini təmin edir.

## 13. Müəllim heyətinin gender bərabərliyi ilə əlaqəli pedaqoji məsələlərdən xəbərdar olmasını təmin etmək üçün təlim keçirilirmi?

| QƏTIYYƏN | 1 | 2 | 3 | 4 | 5 | BƏLI |
|---|---|---|---|---|---|---|

Hər bir fənn sahəsində gender bərabərliyi perspektivinin vacib olma səbəbləri əsaslandırılmalı, müəllim heyətinin öz təcrübə sahələrində gender meystriminqi və gender bərabərliyi ilə əlaqəli məzmunu təqdim etmək üçün müvafiq bilik və bacarıqlara sahib olmasını təmin etmək də vacibdir. İdeal olaraq fasiləsiz əsasda bilik və bacarıqları inkişaf etdirmək üçün təlimlər müəllim heyətinə hadisələrə gender müstəvisindən yanaşmağın lazım olduğu məqamlara dair nümunələri və təsvirləri daha yaxşı müəyyənləşdirməyə imkan verə bilər. Gender bərabərliyi təcrübəsi və biliklərinin özü-özlüyündə yaranmasını gözləməmək lazımdır: bu sahədə mütəmadi olaraq təlim və inkişaf üçün kifayət qədər təchizat və resurslar təmin edilməlidir. Sadalananlar həmçinin Nazirlər Komitəsinin CM/Rec(2019) tarixli Tövsiyəsinə uyğun olaraq gender stereotipləri, seksizm, qərəzli münasibət və ayrı-seçkiliyi müəyyən etmə və aradan qaldırma yolları, həm də onlara qarşı mübarizə aparmaq yolları mövzusunda təlimlərlə genişləndirilməlidir. Müəllim heyətinin fasiləsiz peşə inkişafını təmin etmək üçün genderə həssas dərs və tədris materialları tərtib etmək, o cümlədən genderə həssas pedaqogikada yaxşı təcrübələri tətbiq etmək məqsədilə ali təhsil müəssisələri tərəfindən onlayn resurslar hazırlana və təqdim edilə bilər.

## 14. Yuxarı rəhbər heyətdə qərar qəbul edən şəxslər arasında hüquq fənni üzrə tədris proqramında gender bərabərliyini təşviq etmək öhdəliyi mövcuddurmu?

| QƏTIYYƏN | 1 | 2 | 3 | 4 | 5 | BƏLI |
|---|---|---|---|---|---|---|

Tədris proqramında gender bərabərliyi məsələsinin meynstriminqi üçün təşkilati səylərin təşkilatın ən yüksək səviyyəsində dəstəklənməsi və təbliği vacibdir. Bu, müvafiq mexanizmlərin qəbul edilməsi, lazımi resurslarla təmin edilməsi, səylərə legitimlik və əhəmiyyət verilməsini təmin edir. Ümumiyyətlə, hüquq fənni üzrə tədris proqramının əhəmiyyətli hissəsi milli hüquqşünaslar assosiasiyası tərəfindən akkreditasiya üçün tələb olunan fənlərə və mövzulara əsaslanır və onlar mütləq qaydada (?) genderə həssas, yaxud da gender yönümlü olmur. Belə ki, hüquq məktəblərinin yuxarı rəhbərliklərinin aydın şəkildə müəyyən edilmiş öhdəliklərindən biri tədris proqramında gender bərabərliyi elementinin və gender meynstrinqinin nəzərə alınmasının akkreditasiya prosesinin ayrılmaz hissəsini təşkil etməsini təmin etməkdən ibarətdir.

# HANSI KONTEKSTDƏ

## 15. Gender bərabərliyinin modul göstəricilərinə üfüqi bir məsələ kimi daxil edilib-edilmədiyini bildirmək üçün qiymətləndirmə mexanizmi mövcuddurmu?

| QƏTIYYƏN | 1 | 2 | 3 | 4 | 5 | BƏLI |
|---|---|---|---|---|---|---|

Modul göstəriciləri dərsin məzmununda gender bərabərliyi ilə əlaqəli mümkün perspektivləri əks etdirməlidir. Dərsin məzmununun gender bitərəfliliyi (yəni təqdim olunan perspektivin ümumbəşəri olduğu düşünülür və bu da əksər hallarda qadınların rəyinə etinasız yanaşılan hüquq sahələrində olduğu kimi patriarxal qərəzlə nəticələnir) və ya korluğuna (yəni genderi müvafiqlik kateqoriyası kimi görməmək) malik olmamasını təmin etmək vacibdir. Hüquq fənninin tədris proqramı bütün proqramlar üzrə tətbiq olunma miqyasını qiymətləndirmək məqsədilə gender bərabərliyi məsələlərinin daxil edilməsini təmin etmək üçün yuxarı rəhbərliyin formal mexanizmləri ilə müntəzəm şəkildə nəzərdən keçirilməlidir.

## 16. Genderə həssas dil və ünsiyyət nəzərə alınıbmı?

| QƏTIYYƏN | 1 | 2 | 3 | 4 | 5 | BƏLI |
|---|---|---|---|---|---|---|

Dil həm reallığı əks etdirən, həm də onu formalaşdıran bir amil kimi qəbul edilə bilər. Belə ki, seksist dilin istifadə edilməsi mövcud gender bərabərsizliklərinə etiraz etmək əvəzinə onu daha da gücləndirə bilər. Bu, maskulin terminlərin universal şəkildə istinad edilən termin olduğu hallarda özünü xüsusilə büruzə verir. Bu səbəbdən, səylərin genderə həssas dil və şəkillər kimi digər ünsiyyət formalarının istifadəsinə yönəldilməsini təmin etmək çox vacibdir. Nazirlər Komitəsinin CM/Rec(2019) saylı Tövsiyəsi, genderlə əlaqəli münasibətləri, davranışları və mənsubiyyətləri formalaşdıran əsas aspektlər sayılan dil və digər ünsiyyət formalarında seksizmə qarşı mübarizə aparmağı tələb edir. Qurum həmçinin media müzakirələri və ya maarifləndirmə kampaniyaları vasitəsilə qadınlıq və kişilik təsəvvürlərin yaranmasına dair tənqidi müzakirələr aparmağı tövsiyə edir.

## 17. Ali təhsildə cinsi/gender əsaslı ayrı-seçkilik məsələsi nəzərə alınırmı və onunla mübarizə aparılırmı?

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **QƏTIYYƏN** | 1 | 2 | 3 | 4 | 5 | **BƏLI** |

Cinsi və gender əsaslı bərabərsizliklər ali təhsildə geniş yayılmaqdadır. Bu, qadınların daimi (müddətli) vəzifələrdə çalışması ehtimalının aşağı olması, daha çox yarım-ştat vəzifələrdə və ya müqavilə əsasında işləməsi ehtimalının yüksək olması, eləcə də yuxarı rəhbərlikdə tam ştatlı professorlar kimi qərarvermə səlahiyyətləri olan vəzifələri az tutması timsalında karyera həyatındakı fərqlərdə daha aydın nəzərə çarpır. Bərabərsizliklər fəaliyyətlərdə də özünü büruzə verir – qadınlar daha az məqalə və elmi-işlər çap edir, habelə onların maliyyə və qrant vəsaitlərinə çıxış imkanları azdır. Təsisatda mövcud olan ixtiyari cinsi/gender əsaslı ayrı-seçkilik formalarını aradan qaldırmaq üçün hüquq məktəbləri və konkret ali təhsil müəssisələrində onun miqyasını qiymətləndirmək lazımdır. Bunu edərkən hüquq məktəbləri bir-birlərindən öyrənmək üçün aralarında mütəmadi şəkildə mübadilə aparmalı və digər təsisatlarla məsləhətləşməlidir.

## 18. Monitorinq və hesabatvermə məqsədləri üçün tədris proqramında gender bərabərliyi barədə müntəzəm olaraq məlumatlar toplanılırmı?

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **QƏTIYYƏN** | 1 | 2 | 3 | 4 | 5 | **BƏLI** |

Tədris proqramının gender meynstriminqinin müvafiq aspektlərinə dair məlumatlar, təsisatların ilkin şərtləri qiymətləndirməsi və bunun ardınca genderin tədris proqramına daxil edilməsi ilə əldə olunan irəliləyişlərin monitorinqi və hesabatının hazırlanmasını təmin etmək üçün vacibdir. Habelə sözügedən səyləri dəstəkləmək və daha geniş institusional keyfiyyət monitorinqini təchiz etmək üçün bura müvafiq göstəricilərin müəyyənləşdirilməsi və sistemlərin yaradılması daxildir. Göstəricilərə müəllim heyətinin cins tərkibi, modulların və ya proqramların gender bərabərliyi perspektivini nəzərə alma dərəcəsi, genderə həssas müstəqil modulların mövcudluğu və s. daxildir.

## 19. Tələbə kontingenti və şəxsi heyətdə gender bərabərliyinin monitorinqi və hesabatın hazırlanması məqsədi ilə mütəmadi olaraq məlumatlar toplanırmı?

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **QƏTIYYƏN** | 1 | 2 | 3 | 4 | 5 | **BƏLI** |

Tələbə kontingenti haqqında məlumatların toplanması və monitorinqi, gender bərabərliyi perspektivindən təminatda və nəticələrdə boşluqların olduğu yerləri göstərə bilər. Bura tələbələrin qəbulu, nailiyyətləri və fənn seçimlərinin ayrı-ayrılıqda cinslər üzrə monitorinqi daxil edilə bilər.

Bu, gender bərabərsizliklərinin müəyyənləşdirilməsini və mümkün olduğu təqdirdə vəziyyətin qaydasına salınması üzrə tədbirlərin görülməsini təmin edir. Bu fəaliyyətlər bütün sahələrdə və təhsil səviyyələrində bərabər təmsilçiliyi təmin edən və ya qarşısını alan istər fərdi, istərsə də struktur səbəblər haqqında əsas məlumatları təqdim edə bilər. Göstəricilərə tələbələrin cins tərkibi, gender təyinatlı modullara qeydiyyat və s. daxildir.

## 20. Hüquq fənni üzrə tədris proqramının gender meynstriminqinin nə üçün vacib olması izah edilirmi?

| QƏTIYYƏN | 1 | 2 | 3 | 4 | 5 | BƏLI |
|---|---|---|---|---|---|---|

Bütün müəllim heyətinin fənn sahəsi və ya qanunvericilikdə perspektiv qismində gender bərabərliyi ilə tanış olmadığını nəzərə alaraq hüquq fənni üzrə tədris proqramının bütün aspektlərinə gender bərabərliyi perspektivinin daxil edilməsinin vacibliyi və zəruriliyinin dərk edilməsini təmin etmək önəmlidir. Bura insan hüquqları, sosial ədalət və iqtisadi əsaslandırma yanaşmalarına söykənən gender bərabərliyi perspektivinin mənimsənilməsindən fərqli potensial faydalar üzərində işləmək daxildir. Bu həmçinin bir sıra vizual və/yaxud interaktiv materiallar, videolar və ya təlim materiallarından istifadə edərək hadisələrə gender prizmasından baxılmasının vacibliyini nümayiş etdirmək deməkdir.

## 21. Daha geniş cəmiyyətdə gender bərabərliyi biliklərini artıran ictimai fəaliyyətlər mövcuddurmu

| QƏTIYYƏN | 1 | 2 | 3 | 4 | 5 | BƏLI |
|---|---|---|---|---|---|---|

Hüquq fənni üzrə tədris proqramında gender bərabərliyinin təşviqini daha geniş ictimaiyyət və xüsusilə də tələbə kontingentini cəlb etməklə gücləndirmək mümkündür. Bu, gender bərabərliyinə dair mövzulara yönəlmiş tədbirlərin və işçi seminarların təşkili, gender araşdırmaları üzrə fəaliyyətləri nümayiş etdirmək üçün açıq qapı və tələbə yarmarkalarında iştirak və ya işçilərin və tələbələrin gender haqqında məlumatlılığını artırmaq üçün kampaniyalar təşkil etməklə həyata keçirilə bilər.

## 22. İnstitutda gender bərabərliyi, seksizmin aradan qaldırılması və həm qadınların, həm də kişilərin fiziki, cinsi və psixoloji toxunulmazlığını təmin etmək üçün tədbirlər görülürmü?

| QƏTIYYƏN | 1 | 2 | 3 | 4 | 5 | BƏLI |
|---|---|---|---|---|---|---|

Qadına və qızlara qarşı gender əsaslı zorakılıq, o cümlədən cinsi qısnama təhsil müddətində narahatlıq doğuran mövzu olaraq qalmağa davam edir. İnstitutlar bu məsələlərdən xəbərdar

olmalı, hər cür zorakılığın qarşısını almaq üçün müvafiq addımlar atmalı və müvafiq cavab tədbirlərinin görülməsini, qurbanlara dəstək göstərilməsini və zorakılıq törədən şəxslərin cəzalandırılmasını təmin etməlidir. Bura həmçinin etik davranış qaydalarının, yəni tələbələrdən və şəxsi heyətdən gözlənilən davranış tərzinin bəyan edilməsi daxildir. Uyğun olduğu təqdirdə, bu təşəbbüslər qanunun səlahiyyətləri çərçivəsində, hüquq məktəblərində və ümumiyyətlə cəmiyyətdə gender əsaslı zorakılığa qarşı cavab tədbirlərinin formalaşdırılması və tənzimlənməsi yollarını nəzərə almaq müzakirə edilə bilər. Hüquq məktəbləri gender stereotipləri, bullinq, virtual hədə-qorxu, seksist təhqirlərin və gender əsaslı zorakılığın bütün formalarının kökünün kəsilməsi məqsədilə kampaniyaların həyata keçirilməsi və/yaxud onlara dəstək verilməsini tələb edən Nazirlər Komitəsinin CM/Rec(2019) saylı Tövsiyəsinə əməl edə bilər. İnstitutlar səylərini yalnız bu halların qarşısının alınması istiqamətində deyil, həm də lazım olduqda mühafizə və məhkəmə təqibinə yönəltmələrini təmin etməlidirlər.

**Bu yoxlama siyahısını doldurmaqla** hüquq məktəblərinin şəxsi heyəti (məsələn, universitet rəhbərliyi, dekanlar, professorlar və s.) hüquq fənni üzrə tədris proqramında gender meynstriminqinin səviyyəsi barədə fikirlərini bildirəcək, görüləcək və prioritet veriləcək tədbirlərin qiymətləndirməsini aparacaqdır.

**Bu yoxlama siyahısında qiymətləndirmə dörd fərqli istiqamət üzrə aparılacaq:** (1) nə – genderə həssas məzmun; (2) necə – genderə həssas pedaqogika; (3) kim – genderə həssas strukturlar; və (4) hansı kontekstdə – genderə həssas ekosistemlər hüquq məktəblərinin tədris proqramında gender meynstriminqinin səviyyəsi haqqında ümumi təəssüratın yaradılmasını asanlaşdırır və prioritet sahələri müəyyən edir. Bu alət yuxarıda göstərilən hüquq fənni üzrə tədris proqramında gender meynstriminqinə dair dörd fərqli istiqamətin hər birində mümkün fəaliyyət sahələrini əyani şəkildə təqdim etməyə imkan yaradır.

| NƏ – GENDERƏ HƏSSAS MƏZMUN | 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|---|
| Hüquq fənni üzrə tədris proqramında cins və genderlə əlaqəli əsas anlayışlar mövcuddur | | | | | |
| Hüquq fənni üzrə tədris proqramında cins və genderlə əlaqəli təkmilləşdirilmiş əsas anlayışlar mövcuddur | | | | | |
| Hüquq fənni üzrə tədris proqramında interseksonallıq anlayışı | | | | | |
| Struktur baxımdan hüquq fənni üzrə tədris proqramında cins və gender anlayışları | | | | | |
| Tədris proqramında insan hüquqları, təməl hüquqlar və bərabərliklə əlaqəli qanunvericilik anlayışları | | | | | |
| Sterotiplərin olmamasını təmin etmək üçün tədris materialları mütəmadi olaraq nəzərdən keçirilir | | | | | |
| Tədris planı ‘ənənəvi’ yanaşmalardan başqa alternativ baxışları və yanaşmaları təqdim edir | | | | | |

| NECƏ – GENDERƏ HƏSSAS PEDAQOGIKA | 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|---|
| Gender hüquq fənni üzrə tədris proqramının müstəqil elementidir | | | | | |
| Gender hüquq fənni üzrə tədris proqramının məcburi elementidir | | | | | |
| Hüquq fənni üzrə tədris proqramında mövqe və/yaxud feminist yanaşma və metodologiyalar nəzərdə tutulur | | | | | |
| Tələbələrin fərqli qruplarda müştərək şəkildə çalışmağı üçün tədris zamanı onlara yaradılan imkanlar | | | | | |

| KIM – GENDERƏ HƏSSAS STRUKTURLAR | 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|---|
| Proqramı tədris edən heyətdə gender balansı | | | | | |
| Müəllim heyətinin genderlə əlaqəli pedaqoji məsələlərdən xəbərdar olmasını təmin edən təlim | | | | | |
| Yuxarı rəhbər heyətdə qərar qəbul edən şəxslər arasında hüquq fənni üzrə tədris proqramında gender bərabərliyini təşviq etmək öhdəliyi | | | | | |

| HANSI KONTEKSTDƏ – GENDERƏ HƏSSAS EKOSISTEMLƏR | 1 | 2 | 3 | 4 | 5 |
|---|---|---|---|---|---|
| Gender bərabərliyinin modul göstəricilərinə üfüqi bir məsələ kimi daxil edilib-edilmədiyini bildirmək üçün qiymətləndirmə mexanizmi | | | | | |
| Monitorinq və hesabatvermə məqsədləri üçün tədris proqramında gender bərabərliyi barədə məlumatların müntəzəm toplanması | | | | | |
| Monitorinq və hesabatvermə məqsədləri üçün tələbə kontingentinin genderi barədə müntəzəm olaraq məlumatların toplanması | | | | | |
| Hüquq fənni üzrə tədris proqramının gender meynstriminqinin nə üçün vacib olması izah edilir | | | | | |
| Daha geniş cəmiyyətdə gender bərabərliyi biliklərini artıran ictimai fəaliyyətlər | | | | | |
| İnstitutda gender bərabərliyi, seksizmin aradan qaldırılması və həm qadınların, həm də kişilərin fiziki, cinsi və psixoloji toxunulmazlığını təmin etmək üçün tədbirlər | | | | | |

# ƏLAVƏ OXU MATERIALLARI


**Bartlett, K. T. və Kennedi R** (1991), Feminist Hüquq Nəzəriyyəsi, “Westview Press, Boulder-San Francisco-Oxford” nəşriyyatı.

**Jonaqhan, J.** (2009), Qanunvericilikdə İnterseksonallıq və Feminist Layihəsi, Kuper D., (redaktor), İnterseksonallıq və daha çoxu: Məkanın qanunverciliyi, səlahiyyəti və siyasəti., səh.21-48. “Routledge Cavendish” nəşriyyatı, London.

**Hunter R., MkQlin C. və Rakley E.** (2010), Nəzəriyyədən praktikaya feminist mühakimələr. “Hart Publishing” mətbəəsi.

**Makinnon, C.** (1989) Dövlətin feminist nəzəriyyəsinə doğru, Harvard Universitetinin nəşri.

**Olsen, F.** (1990), Feminizm və mühüm hüquq nəzəriyyəsi: Amerikan perspektivi, Beynəlxalq Hüquq Sosiologiyası Jurnalı, 18(2), s.199-215.

Üzv dövlətlərdə təhsil sahəsində gender meynstriminqi üzrə **Avropa Şurasının Nazirlər Komitəsinin CM/Rec** (2007)13[6] saylı tövsiyəsi

**Avropa Komissiyasının Çərçivə Proqramı 7** (FP7) və "Horizon-2020"- Gender bərabərliyi üzrə planlar. Bu layihələr çərçivəsində fəaliyyətləri və tədris proqramlarında[7] gender meynstriminqini nəzərə almaqda maraqlı olan hüquq məktəbləri üçün geniş formatda istifadə ediləbiləcək çoxlusaylı tarixi materiallar və alətlər hazırlanmışdır.

**Avropa Komissiyasının GEAR (Təhsil və Tədqiqatlarda Gender Bərabərliyi) aləti**[8].

**Avropa Komissiyasının “She Figures” hesabatı**[9].


6 https://search.coe.int/cm/Pages/result_details.aspx?ObjectID=09000016805d5287

7 Ümumi məlumat üçün baxın: Tornasi və Delaney, 2020 https://ec.europa.eu/info/sites/info/files/research_and_inno-vation/research_by_area/documents/ec_rtd_swafs_report-gender_equality.pdf

8 https://eige.europa.eu/gender-mainstreaming/toolkits/gear

9 https://ec.europa.eu/info/publications/she-figures-2018_en

The Council of Europe is the continent's leading human rights organisation. It comprises 47 member states, including all members of the European Union. All Council of Europe member states have signed up to the European convention on Human rights, a treaty designed to protect human rights, democracy and the rule of law. The European Court of Human Rights oversees the implementation of the Convention in the member states.

**www.coe.int**

The Member States of the European Union have decided to link together their know-how, resources and destinies. Together, they have built a zone of stability, democracy and sustainable development whilst maintaining cultural diversity, tolerance and individual freedoms. The European Union is committed to sharing its achievements and its values with countries and peoples beyond its borders.

**www.europa.eu**

Funded
by the European Union
and the Council of Europe

EUROPEAN UNION

COUNCIL OF EUROPE

CONSEIL DE L'EUROPE

Implemented
by the Council of Europe